

HAFİZ ƏLİMƏRDANLI

# QƏZƏLLƏR

## HƏYATIN MƏNASI NƏDİR?

Ya Rəbb, ömrümün seçdiyi bu cığır haraya gedir?
Yəqin ki, olacaq əzab, bir də ki, sevinc hərdənbir.

Yandırsa göyləri ahım, ürəyin yanmazmı hərdən?
Axanda göz yaşım, qəlbim hıçqırar, gəlməz səs-səmir.

Bir dildar istədim səndən, qəlbimə toxuna bilsin,
Ta ki, verdiyin cığırda olsun tək mənimlə əlbir.

Hər kəsin bəxtində vardır, əzəldən yazmısan qərar,
Yahu, söylə bəs nədəndir, bəlkə də gülzarım bilmir?

Dedilər, eşitsə ol can, sevinər, söyləyər əlbət,
Hər sözu ürəkdən gələr, qəlbinə eyləyər təsir.

Bu həyat belədir, ya Rəbb, ayrılmır kədərlə sevinc,
Dəyişir verilmiş qanun, dəyişir yazılmış sətir.

Verilən ömürdən, ey Hafiz, neçə il salsan da yola,
Yenə də edirsən fikir, həyatın mənası nədir?

*31.01-06.02.2020*

## BİR ZAMAN SÖYLƏDİNMİ?

Ey gül, eşq nədir həyatda, bir zaman söyləmədinmi?
Yaratmaq bir eşqdir, dərdlərə dərman söyləmədinmi?

Həyata eşq verib məna, deyiblər hikmət yazanlar,
Sevənlər eşqindən eylərmi güman, söyləmədinmi?

Eşq yolu mürəkkəb, bu yol hər kəsin qisməti olmaz,
Bu yolda dözməzsən, qalxanda tufan, söyləmədinmi?

Yazıldı Leyliylə Məcnun eşqindən gör neçə dastan,
Bilməsə eşqimdən dövran, eylərəm fəqan, söyləmədinmi?

Eşqinin oduna yandım, bu məkan nədən bixəbər,
Oxunur ötənlər, halım pərişan söyləmədinmi?

Səndən uzaq düşəndə mən, eşqi bəyan eylədin sən,
Həyat eşqdir, bilər bunu əsl insan, söyləmədinmi?

Hafiz, son dəfə görüşdük, o baxış yadındadırmı?
Ruhun da göylərdə eyləyər dövran söyləmədinmi?

*05-09.02.2020*

## SEVİNƏRƏM MƏN

Dünyada sülh olsa, getsə əsarət, sevinərəm mən,
Məhv olsa silahlar, gəlsə ədalət, sevinərəm mən.

Hələ də istəyir bölmək, kimlərsə bu gün dünyanı,
Yox olsa ədavət, qalsa rəqabət, sevinərəm mən.

Dünyanı qoruyar, dərk etsə insan, nədir səadət,
Etdiyi əməldən çəksə xəcalət, sevinərəm mən.

Bir gün sülh olsa yaxşıdır, min illik dava-dalaşdan,
Düşünüb insanlar etsə məşvərət, sevinərəm mən.

Tək çocuq səsindən titrəsin aləm, hər axşam-səhər,
Oxunsun laylalar, səsinə həsrət, sevinərəm mən.

Söylə nədəndir heç gəlmir, ilahi, sülhün nəğməsi,
Alarsa zalımlar bir zaman ibrət, sevinərəm mən.

Budur yeganə arzusu Hafizin, istərsəz deyim,
Açılsa həmişə çiçəklər əlbət, sevinərəm mən.

*10-11.02.2020*

## HEÇ KÜSMƏYİN YERİ VARMI?

Küsməyin ki, bir adətdir, hər söhbətim hicran oldu,
Həsrətindən qəlbim yandı, ayrılığın yaman oldu.

Səni görən gündən bəri, eşqin odu nədir, bildim,
Pərvanə tək yandım oda, eşidənlər heyran oldu.

Aşiq olmaq istedaddır, qismət olmaz hər sevənə,
Yayıldı bu istedadım, sevənlərə dastan oldu.

İndi daha Məcnun yoxdur, bu ad çoxdan yaddan çıxıb,
Bizdən söylər artıq aləm, bu əhvalat əyyan oldu.

Gəzmə məndən çox aralı, hər sözümüz söhbət olur,
Elin gözü ki, bizdədir, səbəbkarı dövran oldu.

Gəl sevgilim, küsmə daha, keçən günlər geri dönməz,
Yadına sal bir zamanlar, neçə küsən peşman oldu.

Əgər məndən ayrı düşsən, ayrılığa dözərmisən?
Kim nə desə inan mənə, bu söz-söhbət yalan oldu.

Öz qəlbinə qulaq as bir, gör, Hafizdən nələr deyir,
İki sevən arasına girən yalnız şeytan oldu.

*14-15.02.2020*

## QALAN HƏMƏN SUAL OLDU

Bir zamanlar eşq deyəndə Leyli, Məcnun misal oldu,
Sevənlərin öz dünyası, başqa aləm xəyal oldu.

Keçib artıq o dövranlar, düşmür Məcnun indi yada,
Eşq oduna yananların son istəyi vüsal oldu.

Rəqiblərin sayı artdı, bir zülfü qarə görəndə,
Sevən qəlbə əsas meyar, lalə dodaq, camal oldu.

Fizuli tək dahi varmı, sevənlərdən bir də yaza?
"Şəbi-hicran" can yanmasa, qalan həmən sual oldu.

Bir dildarı mən də sevdim, ixtiyarım getdi əldən,
Ürəyimi açdım ona, şahid yalnız hilal oldu.

Hər sözümə ağız büzüb, nə "hə" dedi, nə "yox" dedi,
Göz yaşlarım axıb getdi, dəyişən tək əhval oldu.

Ayrılığın vaxtı çatdı, nə o dindi, nə mən dindim,
Bir söz ondan eşitmədim, sanki dilim də lal oldu.

Dəftər-qələm olsa əgər, Hafiz ol dildara yazar,
Ürək sevən cəlal deyil, istədiyi kəmal oldu.

*15-16.02.2020*

## NAĞILLARDA BİR ALƏMİM VAR İDİ

Bir zamanlar nağıllardan bir aləmim var idi,
Səyahətçün düşünürdüm beş-on gəmim var idi.

Xəyallarda neçə dövlət, neçə diyar dolandım,
Kitabları oxumağa, yaman təbim var idi.

Sevinərdim heç olmasa, oxuduğum kitabda,
Kəlamlarım, adətlərim, milli dəbim var idi.

İllər ötdü, nağıllardan həyata mən atıldım,
Həyat verdi sevinc mənə, həm də qəmim var idi.

Bilməz idim, hər günümüz sınaq olur, qan olur,
Nə yaxşı ki, qəlbimə yar bir həmdəmim var idi.

Heç sən demə, nağıllar da bizə nəsə öyrədir,
Bunu mənə söylədən də, ol sənəmim var idi.

Hafiz, sənin öz qəlbində neçə nağıl yaşayır,
Unutma ki, yazmaq üçün bir qələmim var idi.

*20-21.02.2020*

## EY İNSANLAR, SÜLHƏ GƏLİN!

Qış da getdi, yağmadı qar, nədən belə, heç bilmədim?
Tökdü yağış, əsdi rüzgar, nədən belə, heç bilmədim?

Qışın da var öz ləzzəti, fəsillərin arasında,
Torpaq qardan naxış alar, nədən belə heç bilmədim?

Bahar gəlsə yağan qarın faydasını görər hamı,
Bağçada bülbül oxuyar, nədən belə, heç bilmədim?

Səbəbini, sən ey insan, düşündünmü bir zamanlar?
Tanrı özü qaldı naçar, nədən belə, heç bilmədim?





Pozdun dünyanın gedişin, böldün onu neçə yerə,
Qəlbdə yaratdın intizar, nədən belə, heç bilmədim?

İndi iqlim də dəyişir, insanların əməlindən,
Qış ki, getdi, gəlmir bahar, nədən belə, heç bilmədim?

Ey insanlar sülhə gəlin, sülhə dəyər Tanrı verər,
Hafiz deyər təkrar-təkrar, nədən belə, heç bilmədim?

*21-23.02.2020*

## XOCALI

Nədəndir eşitmir dünya fəryadımı candan,
Eşitmir, bəlkə heç eşitmək istəmir cahan.

Qanamı susamış, yoxsa ki, azmış yolundan,
Yoxsa ki, unutmuş, nə vaxtsa adlanıb insan.

Tökülmüş ahılın, çocuğun burada qanı,
Susur dünya ancaq, susarmı bu qədər vicdan?

Qan ilə yazıldın tarixin səhifəsində,
Qəlbim də, Xocalı, nifrətdən eyləyir tuğyan.

Ayrıldın köksümdən, köksümdə sağalmır yara,
Ürəyim alışıb, dayanmaz, hayqırar üsyan.

Siz ey vətənimin əyilməz mərd ərənləri,
Çağırır Xocalı, verməyin düşmənə aman.

Bu Vətən bölünməz, Tanrının verdiyi paydır,
Oğullar yolunda canını edərlər qurban.

Qoy, tarix dərs alsın, sizlərdən götürsün ibrət,
Ey Hafiz, söyləyib, söyləyir bunu Yaradan.

*25.02.2020*

## BİR MƏN BİLDİM, BİR SƏN BİLDİN

Könül deyir, ürək sevər, bir mən bildim, bir sən bildin,
Ömür daha getməz hədər, bir mən bildim, bir sən bildin.

Nədən ayrı dolanmışıq, ürək dözmür ötən günə,
Bilənlərdən aldım xəbər, bir mən bildim, bir sən bildin.

Cəfalara dözmüşəm mən, rəqiblər həsrətlə baxar,
Əzab çəksəm gedər kədər, bir mən bildim, bir sən bildin.

Gecə-gündüz qəlbimdəsən, qibtə edər mənə qəmər,
Kömək etməz məgər ülkər, bir mən bildim, bir sən bildin.

Söylədilər ol yar qılar, eşidərsə sənə əlac,
Sağalaram versə zəhər, bir mən bildim, bir sən bildin.

Soruşma gəl heç sən məndən, könül sevən gözəl olar,
Təki dili olsun şəkər, bir mən bildim, bir sən bildin.

Qınamayın, a dostlarım, sevən qəlbi sevən bilər,
Yazılarsa neçə əsər, bir mən bildim, bir sən bildin.

Bir gün gələr qəlbin deyər, bir dəryadır sənin sözün,
Min rəqibə hətta dəyər, bir mən bildim, bir sən bildin.

Ey Hafizi sevən gözəl, bu sevdadan yorulmadın?
Həyat vermiş sənə cövhər, bir mən bildim, bir sən bildin.

*25.26.02.2020*

## MİRZƏ ŞƏFİ VAZEHƏ

Hər şairin ana dildə adı bəyan olmalıdır,
Ustadların sözlərində məna əyan olmalıdır.

Gör neçə dastan yaradıb, bircə sətir yazmaq ilə,
Bir sətrini kim oxusa, qəlbə həyan olmalıdır.

Vazeh bu cür ustad olub, hikməti var dörd sətirdə,
Dərk etməyə oxucuda, yəqin imkan olmalıdır.

Dünya özü heyran olub, Vazeh yazan əsərlərə,
Əlbəttə ki, qiymət verən kamil insan olmalıdır.

Hər kəlməsi düşündürür, insanları zaman-zaman,
Yaddan çıxmaz bir incidir, qəlbdə güman olmalıdır.

Hər nə qədər söyləsələr Vazeh yazan incilərdən,
Yenə azdır, danışmağa hələ dövran olmalıdır.

Nə yaxşı ki, yad elədim, Şair ruhu xoş olacaq,
Budur borcu Hafizin də, qəlbiyanan olmalıdır.

*28-29.02.2020*

## HƏR BİRİ CANDAN ƏZİZDİR

Olsa dost mənə qismət, min şuxə dəyər, mən demişəm,
Hər biri candan əziz, sorsan əgər, mən demişəm.

Hər çörək kəsdiyinə dost deməzlər, istəsən də,
Dost olan lazım gəlsə, can da verər, mən demişəm.

Şad günümdə dostlara hər an minnətdar olaram,
Sınaram hər birini, gəlsə kədər, mən demişəm.

Dərdi pünhan tutaram, dostlarım da dərd çəkməsin,
Dostlara istəmərəm dəysin xətər, mən demişəm.

Qəlbimi açsam əgər, dostlar heç kənar qalarmı?
Çalışar hər dərdimə olsun çəpər, mən demişəm.

Könlümə şövqü verən, əlbəttə ki, dostlarımdır,
Ürəyim dost tapmasa, qübar edər, mən demişəm.

Dostlarsız həyat heçdir, a dostlarım bilirsizmi?
Hafizin qəlbi verər sizə xəbər, mən demişəm.

***02-03.03.2020***

## QİTƏ

Cəfalıdır elmin yolu, hər yetənə qismət olmaz,
Əzabı çox, səfası az, cəfa ilə ömür keçir.

Elmin yolu eniş-yoxuş, savad yoxsa təzad olur,
Məndən əvvəl gər ki, gəlib dahilərdən həmən fikir.

Neçə-neçə ustad alim, neçə-neçə ustad şair,
Söyləmişdir gözəl sözlər, sözlər qalıb sətir-sətir.

Yoxdur daha həmən alim, yoxdur daha həmən şair,
Sözlər yanlız məşəl kimi insanlığa işıq verir.

Elm sənə dövlət verməz, ucaldacaq amma səni,
Dövlət yığan bir çox insan, baxıb sənə həsəd edir.

Bəlkə yaşar tək bir insan, bir millətsə qala bilmir,
Başqasının qulluğunda, səsi ötən dündən gəlir.

***04.03.2020***

## MƏNLƏ HƏMDƏM BU GECƏ

Gəlsin qəmər qonağım, sənlə bahəm bu gecə,
Dolsun meylə piyalə, getsin dərd-qəm bu gecə.

Bu dövranın çoxmudur, hələ də məşəqqəti,
Dözərəm sənlə olsam, bilsin aləm bu gecə.

Xatırla sən hər günü, hər anın dəyəri var,
Bəlkə də dərk edərsən, mənlə həmdəm bu gecə.

Cövr etmək adətindir, nədən axı bu qədər,
Etsən imtahan məni, ollam xürrəm bu gecə.

Ürəyim bəzən dözmür, kövrəlir hər sözündən,
Gözlərim yaşla dolur, yanağım nəm bu gecə.

Yetişib zaman indi, itirsən son məqamı,
Kömək etməz bir daha, dəftər-qələm bu gecə.

Hafizin səbri böyük, hər cövrünü unudar,
Evinin kandarından atsan qədəm bu gecə.

***07-08.03.2020***

## BİLMİRƏM HEÇ NƏ ZAMAN

Bilməm nə zaman dildar mənlə həmdəm olacaqdır,
Sevinci sevinc cana, qəmi də qəm olacaqdır.

İstərəm mən, nəhayət, qutarsın ahım, fəqanım,
Onunla bircə günüm, bir ömür aləm olacaqdır.

Kim görübdür bu qədər, dərdi-ələm bir gecədə,
Hər gecəm onsuz əzabdan cəhənnəm olacaqdır.

Söz yox hər sevən qəlbin, gizli bir dastanı vardır,
Aşkar etsəm sirrimi, dostlar xürrəm olacaqdır.

Ol şux kənar dolansa, mən bəxtimi sınayaram,
Rəqib məni sınasa, əhdim möhkəm olacaqdır.

Bahar fəsli yetişsə, axar sular aşıb daşar,
Hər açan gül-çiçəkdə, yenə şəbnəm olacaqdır.

Bir xəbər olsa yardan, soruş, Hafiz inciyərmi?
Dediyi hər kəlmədən, qəlbinə məlhəm olacaqdır.

***08-10.03.2020***

